Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 27 saylı Sabunçu seçki dairəsindən Pirşağı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Kərimova Qəndab Əli qızının 7 yanvar 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 141 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 07 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2014-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 27 saylı Sabunçu seçki dairəsindən Pirşağı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Kərimova Qəndab Əli qızının 7 yanvar 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 141 saylı müraciətini araşdıraraq müəyyən etdim:

27 saylı Sabunçu seçki dairəsindən Pirşağı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Kərimova Qəndab Əli qızı 7 yanvar 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, adı çəkilən seçki dairəsinin Pirşağı bələdiyyəsini əhatə edən seçki məntəqələrində seçki günü qanun pozuntularına yol verildiyini iddia etmiş və bununla əlaqədar müvafiq tədbirlər görülməsini xahiş etmişlər.

Daxil olmuş müraciət ilkin olaraq nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, Mərkəzi Seçki Komissiyasına daxil olmuş içərisində müraciətin olduğu poçt zərfinin üzərindəki müvafiq ştampda məktubun göndərilmə tarixi "05-01-2015" göstərilmişdir. Bu isə onu göstərir ki, həmin müraciət qanunvericilikdə müəyyən olunmuş müddət ötürülməklə verilmişdir. Bu səbəbdən də müraciət geri göndərilməlidir.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin şikayəti ilkin olaraq nəzərdən keçirir. Bu zaman ekspert şikayətin Seçki Məcəlləsi və bu Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Ona görə də 27 saylı Sabunçu seçki dairəsinin Pirşağı bələdiyyəsini əhatə edən seçki məntəqələrində seçki günü qanun pozuntularına yol verildiyinə dair həmin dairə üzrə Pirşağı bələdiyyəsinə qeydə alınmış namizəd Kərimova Qəndab Əli qızının qeyd edilən şikayəti qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə verilmədiyindən, müraciət mahiyyəti üzrə araşdırılmadan geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında"ı Təlimatn 1-ci, 2-ci, 4.1.2-ci, 6-cı və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 27 saylı Sabunçu seçki dairəsindən Pirşağı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Kərimova Qəndab Əli qızının 7 yanvar 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 141 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saat müddətində dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**